Azərbaycan Tibb Universiteti

Psixiatriya kafedrası

Müalicə Profilaktika Fakultəsi

Ümumi psixipatologiya



Mühazirə 1

# PSİXİATRİYA FƏNNİ, ONUN TARİXİ, PSİXOGİGİYENA VƏ PSİXOPROFİLAKTİKA. PSİXİATRİYANIN HÜQUQİ PROBLEMLƏRİ.

# PSİXİATRİYA FƏNNİ, ONUN TARİXİ, PSİXOGİGİYENA VƏ PSİXOPROFİLAKTİKA. PSİXİATRİYANIN HÜQUQİ PROBLEMLƏRİ.



## ***PSİXİATRİYA***-sözünün mənası qəlbin, ruhun müalicəsi deməkdir.

- İnsan yaranandan özünün dünyagörünüşünə görə, təbiətdə və onu əhatə edən mühitdə hər bir şeyi ruhu-qəlbi ilə qavrayır və emosiyalarla ona reaksiya verir. Baş verən hadisələrə insanların verdiyi reaksiyalar emosional fonda olmaqla bərabər, onun əhval-ruhiyyəsinin durum dərəcəsini göstərir. İnsanların düşdükləri həmin ruh dəyişikliklərinin orqanizmə təsiri, onları düşünməyə sövq etdi. Psixi fəaliyyət özlüyündə beynin özünəməxsus funksiyası olub, ətrafa münasibəti vəhdət şəklində bildirir. Əgər bu vəhdət müəyyən səbəblər üzündən pozulursa, artıq bu psixi fəaliyyətin pozulması, yəni patologiya deməkdir. Məhz bu patologiyanın aradan qaldırılması, yəni müalicəsi, reabilitasiyası və profilaktikası ilə psixiatriya elmi, bu sahədə çalışan mütəxəssislər məşğul olur.

# Psixiatriya elminin tarixi

Təbabətin bütün sahələrində olduğu kimi, psixiatriyanın öz tarixi vardır. İnsan yaranandan psixi xəstəliklərlə qarşılaşmış və təbiblər onun müalicəsi yollarını axtarmışlar.

Yalnız **XIX**-cu əsrdən etibarən ruhi xəstəlikləri müalicə edən mütəxəssislər meydana çıxmışdır.

| Mərhələlərin adı | Dövrü | Qısa məlumat |
|---|---|---|
| **E M P İ R İ K** | b.e.ə.IV-V əsr - XVII əsrə kimi | Fransada həkim F.Pinel ruhi xəstələri zəncirlərdən azad etdi |
| **F E N O M E N O L O J İ** | XVIII-XIX əsrin sonu | Krepelin psixi xəstəlikləri nozoloji formalara ayırdı,sindrom anlayışı və müalicə taktikası yarandı. |
| **N O Z O L O J İ** | XIXəsrin sonu - XX əsrin sonu | Psixi xəstəliklərin etiopatogenezinin elmi araşdırılmaları, psixotrop preparatların kəşfi(1952), beynəlxalq təsnifat (1992), Neokrepelin dövrü. |

# XX əsrin əvvəllərində ruhi xəstəxanalarda fiksasiya metodları - hərəkətsizlik köynəyi



# Psixiatriya elmi təkmilləşərək, bir neçə sahəyə bölünmüşdür.

## Ümumi psixiatriya

- Psixi pozuntuların etiopatagenezi, klinikası, diaqnostikası, psixoprofilaktikasını

## Xüsusi psixiatriya

- Ayrı-ayrı psixi xəstəlikləri

## Uşaq psixiatriyası

Psixi xəstəliklərin gedişini uşaqlarda xüsusiyyətlərini

## Narkologiya

- Psixoaktiv maddələrin insanın psixi vəziyyətinə təsirini

## Hərbi psixiatriya

Hərbçilərin fəaliyyətində (müharibə və dinc şəraitdə) psixi pozuntuların xüsusiy-yətləri

**Məhkəmə psixiatriyası**

Cinayət törətmiş və təcridxanada olanların psixi pozuntuların xüsusiyyətləri

**Fövqəladə Hallar psixiatriyası**

- Həyati təhlükəli böhran vəziyyətlərdə insanların psixi pozuntuların xüsusiyyətləri

**Psixoterapiya**

Müalicə prosesində psixoloji faktorlardan istifadə olunması

**Psixofarmokologiya**

- Psixotrop dərman preparatlarının tədqiqatı

- Psixi xəstəliklərin müalicəsində psixiatriya yardımının hərtərəfli təşkili böyük əhəmiyyət kəsb edir. Belə ki, psixi xəstələrin durumu ilə bağlı, ruhi xəstəxanalarda (stasionar) xüsusi iş rejiminin qurulması, həkim mütəxəssislərin müalicə və reabilitasiyanın yüksək peşəkarlıqla təşkili, ambulator şəraitdə müalicə remissiyasının davamı kimi, qoruyucu terapiyanın xəstələr tərəfindən qəbulunu təmin edərək,nəzarət etmək-psixiatriya xidmətinin strukturuna daxildir.
- Bundan əlavə, psixiprofilaktika və psixogigiyena tədbirləri psixiatrik xidmətinin fəaliyyət sferasına daxildir. Burada əhalinin psixi sağlamlığının qorunması nəzərdə tutulur. Əmək və yaşayış şəraitinin yaxşılaşdırılması, şəxsiyyətlərarası münasibətlərin adekvatlılığı, ətraf mühitdə  baş verənlərə insanın psixikasının normal reaksiyası psixogigiyenanın əsasını təşkil edir.

# *Psixogigiyenanın əsasları*

- *Əmək və yaşayış şəraiti*
- *Şəxsiyyətlər arası münasibət*
- *Ətraf mühit və insan*

# *Psixoprofilaktika*

- Psixoprofilaktika psixi xəstəliklərin yaranmasının,onun xroniki hala keçməməsinin və xəstəlik nəticəsində şəxsin əlil olmamasının qarşısını almağa yonəldilmiş bir sahədir. Burada təbii ki, 3 istiqamətdə iş aparılır(I-li, II-li və III-lü).

# *Psixoprofilaktikanın əsasları*

Xəstəlik yaranmasın

Xəstəlik xroniki hala keçməsin

Xəstə əlil olmasın

- Psixiatriya sahəsində həm xəstələrin,həm də onu müalicə və reabilitasiyası ilə məşqul olan mütəxəssislərin hüquqlarını müdafiə edən qanunvericilik vardır. Hər bir ölkənin Konstitusiyasında, ”Əhalinin sağlamlığının qorunması haqqında” və “Psixiatriya yardımı haqqında”  qanunda bütün hüquqi məsələlərin həlli öz əksini tapmışdır. Bundan əlavə, Dünya üzrə BMT-nin Baş Məclisi “Psixi xəstələrin hüquqları” haqqında Qətnamə (1991) qəbul etmişdir. Bütün bu sənədlər psixiatriya yardımının əsas psinsiplərini əks etdirir (psixi pozuntusu olan şəxslərə tibbi və sosial yardım, dövlət təminatı, qanunçuluq, humanistlik, insan və vətəndaş hüquqlarına, azadlıqlarına əməl edilməsi).

| İl | Yer | Tədbirin adı | Sənədin adı |
|---|---|---|---|
| 1963 | ABŞ | 17-ci Ümümdünya Tibb Məclisi | Qətnamə |
| 1983 | İtaliya | 35-ci Ümumdünya Tibb Məclis | Qətnamə |
| 1991 | | BMT-nin Baş Məclisi | Qətnamə |
| 1996 | İspaniya, Madrid | | Madrid bəyannaməsi |